# Bu da belə bir ömürdür...

(Əvvəli 5-ci səhifədə).

izləri o qədər dərinliyi ilə qurudub ki... yağış, çovğun, şaxta belə onu silə bilməz. Bu dağlara gedən yolda canlıların hər izində, hər anında hiss olunur, görünür... çünki şəhidlər qoruyub və saxlayıb onları...

**Dağ övladı**

Elvində dağlar qoynunda doğulub, boya-başa çatıb. Onun tərcümeyi-halını öyrənmək istədikdə məlum oldu ki, kəndin ziyalı, səviyyəli, özünəməxsus hörmət və izzət sahibi olan bir ailənin övladıdır. 1996-cı il oktyabrın 1-də Əmirvan kəndində dünyaya göz açıb. Orta məktəbi 2003-2014-cü illərdə bitirib. Təbiətin ən gözəl guşələrindən biri sayılan Əmirvan kəndinin hər qarışında gözəllik axtaran Elvin buranın saf havasıyla, saf insanları ilə ünsiyyət içində böyümüşdür. Qorxmaz, arzular toplusu bir ürəklə böyümüşdü. Atası Əbülfəz, anası Elmira Abdurahmanovlar övladlarının arzu və istəklərinə həmişə hörmətlə yanaşmışlar.

Ailədə üç uşaq idilər. Böyük qardaş Məcnun Azərbaycan Qafqaz Universitetini bitirmiş, Estoniyada magistr pilləsini davam etdirir.

Balaca qardaşı Elçin isə Azərbaycan Dövlət İqtisad Universitetində təhsilini davam etdirmişdir. Ailənin ortancılı idi Elvin. Elvin orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılmış və 2014-cü ilin oktyabrından 2016-cı ilin aprel ayının əvvəllərində əsgəri xidmətini başa vurmuşdur. əsgəri xidmətini başa vurduqdan sonra öz doğma kəndinə qayıdan Elvin bir müddət kənddə işlədi. Ancaq hərbi xidmətdə olarkən hərb sənətinə maraq onu yenidən orduda könüllü xidmət etmək, ordumuzun daha da gücləndirilməsi üçün onun da xidməti olmasını istədi.

Yağı tapdağında olan torpaqlarımız, evindən-ocağından didərgin salınan insanlar, I Qarabağ müharibəsində hansı manea olursa-olsun, ordumuzun uğursuzluğu onu həmişə narahat edirdi. Əmioğlu sayılan Əfqan Abdurahmanovun adı və fəaliyyəti ilə tanınan bir hərbçi olması, özünəməxsus xüsusiyyətləri ilə hərbçilər arasında qazandığı nüfuz onu da bu sənətə bağladı. Elə buna görə də yenidən hərbi sahədə işləmək arzusu ilə 2017-ci ildə, iyulun ortalarında təlim-tədris mərkəzində gizirlik oxudu. Sonra Qusar rayonuna gedərək orada iki aya yaxın hərbi sahədə xidmət etdi. Kəşfiyyatçı idi. İşlədiyi müddətdə hərbi sahəyə daha çox bağlanan Elvin xüsusi təyinatlıların kursuna yazıldı. Bu kursu 42 nəfər tələbə yoldaşı ilə bahəm bitirdi. Hər bir çətinliyə dözürdü, təki öz peşəsini mükəmməl öyrənsin. Onu da qeyd edək ki, anasının dediyinə görə bu kursun müdavimi olarkən Elvin 20 kq çəki itirmişdi. Elvin dağlar qoynunda böyümüşdü, uşaqlıq həyatını təbiətin ən çətin dağ və qayalarını, dərə və meşələrini gəzməklə keçirən Elvin heç bir çətinlikdən qorxmazdı. Sertifikat aldığı günün sevinci həyatının ən sevincli anlarından biri idi.



2018-ci ilin may ayının 18-dən xüsusi təyinatlı gizir kimi hərbi işinə başladı.

**Həqiqət donu**

Uşaqlıqdan yaşadığı həyatda hər şeyi öz həqiqət donunda görmək istərdi. İnsanlarda mərdliyi, sədaqəti sevərdi. Düşüncəli baxışları əlbəttə onun düşünmədən hərəkət etmədiyini büruzə verirdi.

*Bəli duman olum-duman... Bir çəngə.*
*Mənim öz yağışım, öz qarım olsun.*
*İstədiyim yerə yükümü çəkən*
*Hökmüm, ixtiyarım, qərarım olsun.*
*Mənim sərhəddimdən dalğası keçən,*
*Yaman fikirləri daş edə bilim.*
*Namərd qılıncının qabağında mən,*
*Qara kötükləri daş edə bilim.*

Seçdiyi peşəsində də həmişə doğruluğun həyatı baxımdan rəsmiliyini, həyatdaki bütün neqativliyə, insanın insan həyatının bütün çalarları ilə (daha zəngin olduğunu) daha aydın görəcəyini düşünürdü. İnsanların hər addımda sınağa çəkildiyi bir peşə kimi sevirdi hərbçilik sənətini. Həqiqəti öz "donunda" görmək istəyərdi.

Torpaqlarımızın erməni işğalçılarının tapdağında olması, onların atəşkəsi hər gün pozması, işğalda olan ərazilərimizin xarabalığa çevrilməsi, evindən-ocağından didərgin düşən insanların yurd həsrəti, ocaq həsrəti onun qəlbini acıdırdı.

2020-ci ilin iyul hadisələri bir hərbçi kimi onu daha çox sarsıtmışdı. İgid oğullarımızın qisasını almaq onun başlıca məqsədi idi. Qisas hissi dəniz coşğusu kimi bütün varlığını təlatümə bürümüşdü. Müharibənin, döyüşlərə başlamağın labüdlüyünü bilirdi. Elvində Ali Baş Komandanın döyüş əmrini gözləyən gənclərdən idi.

Sentyabr ayı artıq müharibənin başlaması üçün pik nöqtə sayılırdı. Ayın 19-da doğulduğu ocağa gəldi. Sanki son ziyarəti olmasını hiss edirmiş kimi... Ailəsi ilə, nişanlısı ilə, doğma kəndinin abu-havası, gözəllikləri ilə son vida üçün.

Elvin iki il idi ki, nişanlı idi. Nişanlısı tələbə idi. Hər iki ailənin Elvinin toyu ilə əlaqəli o qədər arzuları var idi ki...

Elvin sentyabrın 26-da döyüşə hazır bir əsgər kimi ordu sıralarına qayıtdı. Ayın 27-dən isə döyüşlərdə iştirak etdi.

Elvinin əmisi Şakir Abdurahmanov hərbçi idi. Yaxın qohumu Əfqan Abdurahmanov hərbi sahədə öz fəaliyyəti ilə seçilən hərbçi idi. Bəlkə də, Elvin də məhz soyadını daşıdığı bu qohumlarına qibtə hissi ilə yanaşdığı üçün bu sənəti seçmişdi...

Elvin son dəfə ailəsi ilə sentyabrın 29-dan 30-na keçən gecə danışmışdı. Anasını da, nişanlısını da qardaşlarına əmanət etmişdi...

Elvin Füzuli, Cəbrayıl istiqamətində, Cəbrayılın girəcəyində gedən qızğın döyüşlərdə iştirak etmişdi.

Müharibə gedən günlərdə sosial səhifədə Elvinin videosu paylaşılmışdı.

Burada o yaralı kimi və ya yorğun döyüşçü kimi göstərilmişdi. Və ona baxan hər kəsi ağlatmışdı. O yaralıya bənzəyirdi, dostlarının, silahdaşlarının onu gəlib aparacağını gözləyən bir əsgər... Ölümü hər an özündən, yaddaşından silmək istəyən neytral zonada olan bir döyüşçü.

Bu video oktyabrın 1-i çəkilmişdi. O gün həm də onun doğum günü idi. Onun baxışları nələr demir seyrçiyə?.. Çox qısa olsa da bu video sanki çoxseriyalı kinofilmlərdən də çox məna kəsb edirdi insanlara...

Oktyabrın 2-si onun şəhid olması haqda xəbər gəldi...

Elvin görkəmi, fəaliyyəti ilə heç ölümə yol verən igidlərdən deyildi. Ona ölüm yaraşmırdı...

Ailəsi-nənəsi, anası və qardaşı ilə söhbət zamanı onlar Elvin haqda maraqlı xatirə və epizodlar danışdılar. Anası Elmira xanım qeyd etdi ki, döyüş yoldaşları onun bayrağa bükülmüş paltarlarını gətirəndə onun paltarlarının cibində erməni əsgərlərinin formasının nişanələri tapılmışdı. Bu isə onun bir kəşfiyyatçı kimi əsir tutduğu və məhv etdiyi erməni mənfurlarının "sayını" göstərirdi.

Elvin hər kəsin yaddaşında yaşayır. O videonu izləyənlərində, onu tanıyanların, döyüşçü yoldaşlarının da... Onun şücaətindən, qəhrəmanlığından ürpənən erməni mənfurlarının da.

Əfsanəyə çevrilmiş Elvin ömrü nəsilbənəsil yaddaşlarda yaşayacaq. Sevimli şairimiz Məmməd Araz demiş:

***Zarımağa ömür deyib ağlama,***
***Hər ölümə ölüm deyib ağlama,***
***Tale döyüb, haqlı döyüb, ağlama,***
***Bu da belə bir ömürdü yaşadım...***

**BİBİXANIM.**

# Övladlarının əfsanəvi qəhrəmanı

*Sən əbədi bir ocaqsan,*
*Azərbaycan!*
*Yaşadıqca yanacaqsan,*
*Azərbaycan!*

Mən Azərbaycanlıyam... Necə də qürurlu və gözəl səslənir bu söz. Atalarımızın bir məsəli var-"Ət dırnaqdan ayrılmaz". Ayrıla bilməz... Çünki onlar bir-birinə aiddir. Bir-birinə aid olanları isə ayırmaq olmaz. Düşmən 30 il bundan əvvəl Qarabağı bizdən ayırdığını düşünürdü, zənn edirdi. Dəfələrlə "Qarabağ Ermənistandır" - dedilər. Azərbaycanın əzəli, əbədi torpağı olan Qarabağ nə olur olsun, öz anasına qovuşmalı idi. Qovuşdu da...

Hər bir xalqın, millətin taleyində mühüm yer tutan hadisə azadlığa qovuşmaq və müstəqil dövlətçiliyə sahib olmaqdır. Bu yol isə çətin və məsuliyyətli bir yoldur. İnsan bu yolda gərək mübarizələrdən keçməyə, lazım gələrsə, canını qurban verməyə belə hazır olsun. 27 sentyabr 2020-ci ildə başlanan 44 günlük müharibə Azərbaycan xalqının taleyində mühüm rol oynadı, zəfərə doğru addımladığı ilk gün oldu. Vətən nə vaxt çağırır, çağırsın, Azərbaycanın qurd ürəkli, mərd övladları daima hazır idi. Ölüm ayağında olsa belə, yeməyə bir tikə çörəyi olmasa, əlsizqolsuz olsa əlinə silah alacaq gücü olmasa belə onu səsləyən vətəninə hay verdi. Biz bunların hər birinin 44 günlük müharibədə şəhidi olduq. Azərbaycanın mərd oğulları nə keçmişdə, nə indi, nə də gələcəkdə vətənini, xalqını darda



qoymayıb, qoymayacaq da.

Biz o igidləri "Allaha əmanət" - deyib 27 sentyabr tarixindən torpağımızın azadlığı uğrunda döyüşlərə yola saldıq. Ən şərəfli səfərə, ən layiqli şəkildə... Biz hər dəfə bir bölgəmiz işğaldan azad olunanda qürurlanırdıq və düşünürdük: "o torpaqları azad edənlərin içərisindədir əsgərim. Bəlkə indi üşüyür, bəlkə də acdır..." Bu an sevincimiz kədərimizə qarışırdı.

Bu döyüşlərdə öz körpə övladlarını öncə Allaha, daha sonra bu xalqa, dövlətimizə əmanət edib torpaq, vətən uğrunda döyüşə gedən igidlərimiz oldu. Bəlkə də, o igidlər geri dönməyəcəkdi, bəlkə də, övladını son dəfə öpüb-qucaqlayırdı, bağrına basırdı o igidlər... 44 günlük müharibə bizə bu oğullarımızın qəlbindəki vətən eşqini sübut etdi.

Niftalıyev Aqil Rafiq oğlu, 1987-ci il yanvarın 5-də Qəbələ rayon Vəndam qəsəbəsində anadan olub. 2005-2007-ci illərdə Beyləqanda "N" saylı hərbi hissədə həqiqi hərbi xidmətdə olub. O, 2020-ci il sentyabrın 1-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən gələn çağırışla iki azyaşlı övladını, ailəsini geridə qoyaraq, heç tərəddüd etmədən onu çağıran vətənin keşiyində durmağa yollanır. Sentyabrın 27-dən etibarən isə Tərtər istiqamətində gedən döyüşlərə qatılır. Müharibədə iştirak edən döyüşçülərlə söhbət edərkən və ya şəkillərinə baxarkən onların nələr yaşadığını açıq-aydın görmək mümkündür. Onların döyüşlərdə gördükləri, çəkdikləri əzab-əziyyətlər sanki üz cizgilərinə əks olunmuşdu. "Gözlər qəlbin aynasıdır" - deyirlər. Və o gözlər, o insanların qəlbində hiss etdiklərini bizlərə açıq-aydın göstərir. O döyüşçülərin müharibədən əvvəl və sonraki şəkillərinə baxdıqda, açıq şəkildə hər şeyi görmək mümkündür. Sanki o gənclər 44 günlük müharibədə gördükləri, hiss etdikləri ilə vaxtından tez qocalıblar. Eynilə Aqil kimi...

Yaralı vəziyyətdə döyüş bölgəsində 3-4 saat qalan Aqil onu ən çox sarsıdan məqamı xüsusilə vurğulayır. O məqamı eşitdikdə, bir anlığına təsəvvür etmək, gözümün önündə canlandırmaq istəyirəm. Lakin canlandıra bilmirəm, çünki o anı göz önünə gətirmək, təsəvvür etmək mənə çox ağır gəlir. Təsəvür edin ki, bir insanla çörək kəsirsiniz, ona qardaş deyirsiniz, müharibədə çiyin-çiyinə vuruşursunuz və dostunuz, silahdaşınız vurulur, sizdən kömək istəyir, siz ona kömək edə bilmirsiniz. Nə qədər onu oradan çıxartmağa çalışsanız da artıq gec olur. Gözünüzün önündə o insan şəhid olur... Siz isə çarəsizcə durub, qəlb ağrısıyla seyrçi olursunuz...

Aqil Niftalıyev Talış, Suqovuşan, Qubadlı, Laçın istiqamətində gedən döyüşlərdə də iştirak edib. O düşmənin atdığı minomyotun zərbəsindən kəllə-beyin travması alıb, döş qəfəsinin müəyyən nahiyələrində əzilmələr olub. Aldığı kəllə-beyin travmasından sonra əsəb gərginliyi və kantuziya meydana gəlib. Aqil istər müharibə zamanı, istərsə də müharibədən sonra xalqın birliyindən, yardımlarından söz açır:

- "Xalqımız istər maddi, istərsə də mənəvi cəhətdən hər zaman bizimlə olduqlarını çox gözəl şəkildə göstərirdilər. Mən o mənzərəni görüb qürur hissi keçirirdim. İki azyaşlı övladımı, ailəmi xalqıma əmanət edib döyüşə yollandım. Ürəyim rahat idi. Bilirdim ki, xalq ailəmə dəstək olacaq, onların yanında olacaq".

44 günlük müharibədə xalqımız həqiqətən də bir yumruq kimi birləşdi və dövlətin ətrafında sıxlaşdı. Çünki o igidlər bizim üçün, bizim rahat yaşamağımız üçün öz canlarını ortaya qoydular. Xalq olaraq, dövlət olaraq bizim borcumuzdur ki, daim onlara qayğı göstərək, diqqət mərkəzində saxlayaq, hər problemlərində yanlarında olaq. Onlar bu xalqın, bu dövlətin igidləri, xilaskarıdırlar. Müstəqilliyimizin, azadlığımızın carçılarıdır. Biz bu cür igid oğulları dünyaya gətirən, yetişdirən analarımıza borcluyuq.

Bu gün Aqil kimi minlərlə igidimiz dövlət tərəfindən işlə təmin edilir, onlar üçün dövlətimiz hər bir şərait yaradır. Ümid edirik ki, dövlətimiz digər igidlərimiz kimi Aqili də hər zaman diqqət mərkəzində saxlayacaq.

Onu da qeyd edək ki, Aqil Niftalıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, "Cəsur döyüşçü", "Laçının azad olunmasına görə" medalları ilə təltif olunub.

**İlkinur RƏHİMOV,**
**Vəndam qəsəbəsi.**